Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)



# OMBUDSMANIN FƏALİYYƏTİNDƏ UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİ

## OMBUDSMANIN UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİ SAHƏSİNDƏ FƏALİYYƏTİNİN HÜQUQİ ƏSASLARI

Ombudsmanın fəaliyyəti 28 dekabr 2001-ci il tarixli "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənir.



Ombudsman uşaq hüquqları sahəsində fəaliyyətini milli qanunvericilik aktlarına və ölkəmizin 1992-ci ildə qoşulduğu BMT-nin 20 noyabr 1989-cu il tarixli "Uşaq hüquqları haqqında" Konvensiyasında əks olunmuş prinsiplərə əsasən həyata keçirir.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsini müvafiq icra hakimiyyəti, məhkəmə, prokurorluq və digər hüquq mühafizə orqanları, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman), bələdiyyələr, habelə ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları təmin etməlidirlər. Bu orqanlar, birliklər və təşkilatlar fəaliyyətlərində uşaq hüquqlarının üstün mühafizəsi prinsipini əsas tutmalıdırlar.

## OMBUDSMANIN UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİ SAHƏSİNDƏ MANDATI

Ombudsman vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət orqanları, bələdiyyələr və digər qurumlar, onların vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilir.

Müvəkkil "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və **"Uşaq hüquqları haqqında" Konvensiyanın** həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə **müstəqil monitorinq mexanizminin funksiyalarını** həyata keçirir.

## Müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsinin xüsusiyyətləri

Müvəkkil uşaqların hüquq və azadlıqlarının təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqi, pozuntu hallarının qarşısının alınması məqsədilə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir.

Müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi məqsədilə Müvəkkilin aparatında monitorinq qrupları yaradılır.

Müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi zamanı aşkar edilmiş insan hüquqlarının pozulması faktlarına Ombudsman haqqında Konstitusiya Qanunu ilə (Qanunun 12-ci, 13-cü, 13-1- ci və 15-ci maddələri) müəyyən edilmiş qaydada baxılır.

## Müstəqil monitorinq mexanizmi funksiyalarını həyata keçirən zaman Müvəkkilin və monitorinq qrupunun aşağıdakı hüquqları vardır:

- dövlət orqanlarında, bələdiyyələrdə və digər qurumlarda monitorinqlər həyata keçirmək, zəruri məlumatlarla (sənədlərlə, materiallarla) yerində tanış olmaq və surətlərini almaq;
- dövlət orqanlarından, bələdiyyələrdən və digər qurumlardan, onların vəzifəli şəxslərindən zəruri məlumatları (sənədləri, materialları) və ya onların surətlərini tələb etmək və 5 iş günü müddətində almaq;
- həyata keçirilən monitorinqin nəticələrini sənədləşdirmək;
- dövlət orqanlarına, bələdiyyələrə və digər qurumlara, onların vəzifəli şəxslərinə monitorinqin nəticələri ilə əlaqədar tövsiyələr vermək;
- vətəndaş cəmiyyəti institutlarını, müstəqil ekspertləri və mütəxəssisləri monitorinq qruplarının fəaliyyətinə cəlb etmək.

## UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİ SEKTORU

2021-ci ildə Müvəkkilin təşəbbüsü ilə Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin başlıca prinsiplərini, həmçinin BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyəsini nəzərə alaraq, Ombudsman Aparatında Uşaq hüquqlarının müdafiəsi sektoru yaradılmışdır.

## OMBUDSMANIN UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİ ÜZRƏ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

### Şikayətlərə baxılması

Müvəkkil Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxır və səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görür.



Şikayəti insan hüquqları pozulmuş şəxsin razılığı ilə üçüncü şəxslər, o cümlədən vətəndaş cəmiyyəti institutları verə bilərlər.

İnsan hüquqları pozulmuş şəxsin razılığını almaq mümkün olmadıqda (həmin şəxs vəfat etdikdə, fəaliyyət qabiliyyətini itirdikdə və s.), şikayəti üçüncü şəxslər və ya vətəndaş cəmiyyəti institutları razılıq almadan da verə bilərlər.

Müvəkkilin məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq hüququ vardır.

Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanılan şəxslər tərəfindən ünvanlanmış şikayətlər senzuradan keçirilmədən 24 saat müddətində Müvəkkilə göndərilməlidir.

İnsan hüquqları pozulmuş şəxsin razılığı ilə xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda və ya öz hüquqlarını müstəqil şəkildə müdafiə etmək qabiliyyəti olmayan şəxslərin maraqlarına toxunulduğu hallarda Müvəkkil öz təşəbbüsü ilə araşdırma aparır.

## Maarifləndirmə və təşviqat işinin aparılması

Təhsil, səhiyyə, sosial müdafiə, məhkəmə, hüquq mühafizə, idman, mədəniyyət, istirahət, media və digər sahələrdə, habelə ailədə və cəmiyyətdə uşaqlar və onlarla müntəzəm təmasda olan şəxslər arasında uşaq hüquqları sahəsində məlumatlılığın artırılması məqsədilə maarifləndirmə tədbirləri və təşviqat kampaniyaları həyata keçirilir.

Ombudsman tərəfindən hər il "Uşaq hüquqları haqqında" Konvensiyanın qəbul edilməsinin ildönümü ərəfəsində 20 oktyabr-20 noyabr tarixləri "Uşaq Hüquqları Aylığı" elan edilir.




## Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti

Müvəkkil "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirir.

Milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi məqsədilə Müvəkkilin aparatında Milli preventiv qrup yaradılır.

İşgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədi ilə Müvəkkil və onun Milli Preventiv Qrupu tərəfindən saxlanılan şəxslərin, o cümlədən uşaqların öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə başçəkmələr həyata keçirilir.

## Monitorinqlərin keçirilməsi

Uşaqların, xüsusilə çətin həyat şəraitində olan – valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud, baxımsız və sosial təhlükəli vəziyyətdə olan, hüquq pozuntusu törətmiş, zorakılığa məruz qalmış, müharibədən əziyyət çəkən, qaçqın, məcburi köçkün, miqrant, habelə milli azlıqlar və digər kateqoriyalara aid olan uşaqların hüquqlarının təmin edilməsi vəziyyətinin öyrənilməsi məqsədilə monitorinqlər aparılır.

Aparılan araşdırmaların, monitorinqlərin nəticələri və mövcud sahədə olan problemlərin aradan qaldırılması istiqamətində irəli sürülən təkliflər aidiyyəti qurumlara göndərilir.



## Əfv məsələləri və amnistiya elan edilməsi ilə bağlı təkliflərin verilməsi

Ombudsman əfvetmə ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə, amnistiya elan edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verə bilər.



## Dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının və konsepsiyaların icrasında iştirak, habelə həmin sənədlərin icra prosesinin, eləcə də normativ hüquqi bazanın və institusional strukturun təhlilinin aparılması, rəy və təkliflərin müvafiq qurumlara təqdim edilməsi

Ombudsman dövlət proqramları və digər müvafiq sənədlərdə əks olunmuş uşaq hüquqlarının müdafiəsi ilə bağlı bəndlərin icrasında iştirak edir, həmin sənədlərin icrasının təhlilini aparır.

Ombudsman tərəfindən uşaq hüquqları ilə bağlı milli qanunvericiliyin, institusional strukturun təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində müntəzəm olaraq təkliflər irəli sürülür, Azərbaycan Respublikasının Milli Məclisinə və digər səlahiyyətli dövlət qurumlarına təqdim olunur. Ombudsmanın insan hüquqlarının qorunması haqqında illik məruzələrində uşaqların hərtərəfli inkişafı və layiqli həyat səviyyəsinin təmin edilməsi üçün mühüm təkliflər yer almış və onların icrası istiqamətində bir sıra nailiyyətlər əldə edilmişdir.

## Uşaq hüquqlarının müdafiəsi sahəsində əməkdaşlıq

Ombudsman uşaq hüquqlarının müdafiəsi üzrə maarifləndirmə tədbirlərinin keçirilməsi, qanunvericilik aktlarının, dövlət proqramları və digər müvafiq sənədlərin hazırlanması, uşaqların asudə vaxtının səmərəli təşkili, yaradıcılıq potensiallarının artırılması və digər sahələrdə **müvafiq dövlət qurumları** ilə əməkdaşlıq edir.



Ombudsman uşaq hüquqlarının müdafiəsi üzrə bütün fəaliyyət istiqamətlərində **vətəndaş cəmiyyəti institutları**, o cümlədən qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşılq edərək müxtəlif tədbirlər həyata keçirir.

Ombudsman **xarici ölkələrin insan hüquqları təsisatları** ilə, BMT-nin Uşaq Fondu, Avropa Şurası, Avropa Birliyi və digər **beynəlxalq təşkilatlarla**, o cümlədən üzv olduğu Avropa Uşaq Ombudsmanları Şəbəkəsi ilə uşaq hüquqlarının müdafiəsi sahəsində fikir və təcrübə mübadiləsi aparır, bu əməkdaşlıq çərçivəsində uşaqların hüquqlarının təmini üzrə çoxşaxəli fəaliyyət həyata keçirilir. BMT-nin Uşaq Hüquqları Komitəsinə “Uşaq hüquqları haqqında” Konvensiyanın ölkədə icrası vəziyyəti ilə bağlı paralel hesabatlar təqdim olunur.

Ombudsman uşaq hüquqları sahəsində fəaliyyətində **uşaqların** iştirakçılığını təmin edir.

## Regional mərkəzlər

**Qərb Regional Mərkəzi:**

AZ2000, Gəncə şəhəri, Heydər Əliyev meydanı, Gəncə şəhər İcra Hakimiyyətinin inzibati binası, 1-ci mərtəbə

tel: (+994 22) 256 05 65

**Şimal-Qərb Regional Mərkəzi:**

AZ5500, Şəki şəhəri, Məhəmməd Əmin Rəsulzadə prospekti 139a, Şəki şəhər Statistika İdarəsinin binası

tel: (+994 24) 244 01 33

**Şimal Regional Mərkəzi:**

AZ4000, Quba şəhəri, Yusif Qasımov küçəsi 68

tel: (+994 23) 335 15 99

**Cənub Regional Mərkəzi:**

AZ4400, Masallı şəhəri, Heydər Əliyev prospekti, Masallı "ASAN həyat" kompleksi

tel: (+994 25) 215 19 16

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında **vətəndaşların qəbul günləri**

**Bazar ertəsi – Cümə saat 09:00-18:00**




Uşaqların hüquqlarının pozulması ilə bağlı

**Ombudsmana müraciət et!**

## Əlaqə vasitələri:

Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, Hökumət evi, II Ala qapı

www.ombudsman.az

ombudsmanazerbaijan

Tel/Faks: (+99412) 493 74 22, (+99412) 498 23 65

ombudsman@ombudsman.az / apparat@ombudsman.az